I Beynəlxalq Humanitar və İctimai Elmlərin Əsasları Konfransının Materialları / (24 dekabr 2021)
Materials of the I International Conference on Humanities and Social Science / (24 December 2021)
DOI: https://www.doi.org/10.36719/2709-4197/2021/1/1

**Emil Ağayev**
ADPU nəzdində Azərbaycan Dövlət Pedaqoji kolleci
müəllim
emilaghayev93@mail.ru

# SƏTTARIN "ŞUŞA MOTİVLƏRİ"
# (ƏSƏRİN SƏNƏTŞÜNASLIQ KONTEKSTİNDƏ TƏHLİLİ)

***Açar sözlər:*** *Azərbaycan, Qarabağ, Şuşa, Səttar Bəhlulzadə, təsviri sənət*
***Keywords:*** *Azerbaijan, Karabakh, Shusha, Sattar Bahlulzade, fine arts*

İncəsənətin vahid bir prinsip əsasında təqdim edilməsi bütün dövrlər üçün aktualdır. Bu fikri əsas götürərək, janrların özünəməxsus xüsusiyyətlərini nəzər alsaq, ideya, bitkinlik daha çox vurğulanır. Hər bir janrda ölkənin tarixiliyi, mənzərəsi, məişəti təqdim edilir. Rəssamlarımızın yaradıcılığında geniş yer tutan mənzərə janrını xüsusilə vurğulamalıyıq. Kompozisiyalarda ölkəmizin təbiəti,mədəni irsi canlandırılır. Azərbaycanın mədəniyyət paytaxtı hesab edilən Şuşa və Cıdır düzü rəssamlarımızın sanki sevgi mənbəyi olmuşdur. A.Hacıyev, A.Azərelli, E.Şahtaxtinskaya kimi sənətkarlarımız bu mövzuya müraciət etmişlər. Yaradıcılığında lirika üslubu ilə tanınan Səttar Bəhlulzadənin mənzərələri təsviri sənətimiz üçün mühüm bir səhifədir.

Səttar Bəhlulzadə yaradıcılığını təhlil etsək, hər bir əsəri sanki bir obrazlı səhnədir. Vətənə olan sevgisi onun yaradıcılığının zirvəsi hesab edilir. "Xəzər gözəli", "Kəpəzin göz yaşları", "Vətənimin baharı", "Əmircan" kimi məşhur əsərlərin müəllifidir. 50-ci illərdə etüdləri ilə məşhurlaşan Səttar Qarabağa da səyahət edir. Şuşanın məşhur Cıdır düzünə fərqli yanaşması ilə seçilir. Kompozisiyada hər bir təsvir vasitəsi "bədii ümumiləşdirmə"yə əsaslanır. Bəstəkar Vasif Adıgözəlovun Şuşa üçün bəstələdiyi musiqini rəssam rəng dili ilə açıqlamışdır.

DOI: https://www.doi.org/10.36719/2709-4197/2021/1/1

Əsər 1956-cı ildə kətan üzərində yağlı boya texnikasıyla işlənilmişdir.Rəssamın yaradıcılığına xas olan realizm və romantizm cərəyanlarının üstünlük təşkil etdiyi kompozisiyada ,fərdi üsluba xas olan ənənələr vardır. Onun müəllifi olduğu “Cıdır düzü” (ill 1) əsərində mənzərəni dəqiqliklə müşahidə etdiyini vurğulamalıyıq. Məkan isə tarixi, ənənəviliyi ilə seçilir. Rəssam tablosunda dörd fəsili bir kompozisiyada yerləşdirmişdir.

Xalq rəssamı Səttar Bəhlulzadənin bütün əsərlərində təsviri sənətin yaradıcılıq psixologiyası üstünlük təşkil edir. Rənglərin qarşılıqlı vəhdəti işıq-hava perspektivinə tabedir. Sənətkar bütün diqqətləri “Cıdır düzü”nə istiqamətləndirmişdir. Digər əsərlərində olduğu kimi öz məqsədinə nail olmuşdur.



**İLL 1. Səttar Bəhlulzadə “Cıdır düzü” (1956)**

Rəssamın yaradıcılığında mühüm yer tutan Qarabağ etüdlərinin hər birində bu diyarın gözəllikləri fəlsəfi tutumluğu ilə seçilir. “Yuxarı Daşaltı” (ill 2) əsərində insan və təbiəti qarşı-qarşıya qoymuşdur. Rənglərin axıcılığı, dumanlı hava Şuşa təbiətinə xas olan gerçəkliyi rəssam təqdim etmişdir. Lirika, vətən sevgisi, ecazkar Şuşa sənətkarın fırçasının təsir gücüylə tamaşaçılara çatdırılmışdır.

DOI: https://www.doi.org/10.36719/2709-4197/2021/1/1

8 noyabr 2020-ci ildə Azərbaycan xalqının igid oğullarının düşməndən azad etdiyi Şuşamızda Səttarın yaşayaraq yenidən əsərlər yaratmaq ona qismət olardı……



**İLL 2. Səttar Bəhlulzadə "Yuxarı Daşaltı" (1957)**

## Ədəbiyyat

1. Ağayev E. Azərbaycanlı rəssamların Şuşa sevgisi // 4th international Nowruz conference on scientific research – 2021, 18-21 mart. Azərbaycan. Qarabağ – s.44-50.
2. Əliyev Z. Günahlı dünyanın günahsız adamı və yaxud Səttar Bəhlulzadə romantizmi//Bakı, Timeprint – 2014. – 232